

*Dilqəm*
*TƏMRAZ*

## *ZƏFƏR BİZİM OLACAQ!*

**Uca Allahımızın**
**99 adıyla.**
**Gəlin savaşa gedək**
**Qəlbimizin adıyla**
**Son vuruşa gedək**
**Zəfər bizim olacaq!**

**Bizi tora salıblar,**
**Gəlin bu tordan çıxaq.**
**Diri-diri basdırıblar,**
**Gəlin bu dardan çıxaq,**
**Zəfər bizim olacaq!**

**Qəzəllənib qalxmağın,**
**Vaxtı çoxdan gəlibdi.**
**Türkük - azadlığımız,**
**qılıncdan, oxdan gəlibdi,**
**Zəfər bizim olacaq!**

**Azəri türküyük biz,**
**gəlin əsil türk olaq.**
**Dörd yanımız düşməndi,**
**biz onlara görk olaq,**
**Zəfər bizim olacaq!**

**Tanrı bizə yar olar**
**Haqqın savaşıdı bu,**
**Böyük bir milləti,**
**Xalqın savaşıdı bu,**
**Zəfər bizim olacaq!**
**Qələbə bizim olacaq!**

## *BU YOLDA ŞƏHİDLİK QAZİLİK DƏ VAR*

**Ədalət günəşi doğacaq bir gün,**
**Bu yolda şəhidlik, qazilik də var.**
**Qələbə bizimlə olacaq bir gün,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Gözdağı veriləsi bir məqam gəlib,**
**Çoxdan gözlədiyimiz intiqam gəlib,**
**Yağıları qırmaq qana-qan gəlib,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Yurddan qovmalıyıq vətənsizləri,**
**O işğalçıları, o dinsizləri.**
**Qanla yumalıyıq kirli izləri,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Soysuzlar əlində ulular yurdu,**
**İblislər evimdə "haqq-divan" qurdu,**
**Ərən oğulları arxadan vurdu,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Qurban olum əsgər, Laçını qaytar,**
**Şuşa tək gözəllik tacını qaytar,**
**Əsirlikdəki ana-bacını qaytar,**
**Bu yolda şəhidlik, qazilik də var.**

**Düşmən qabağına alnıaçıq çıx,**
**Donuz başlarında ildırım tək çıx,**
**Oğullar arxanca gələcək çox-çox,**
**Bu yolda şəhidlik, qazilik də var.**

## *YOL AYRICINDA*

**Durmuşam Şəmkirin yol ayrıcında,**
**Bir həzin məhəbbət yağışı yağır.**
**Bəlkə göylər deyil, qızdı ağlayan,**
**Vüsalsız bir eşqin qarğışı yağır.**

**Qəlbimin kitabı açılıb yenə,**
**Xoş xatirələri yel varaqlayır.**
**Özüm qocalsam da, eşqim cavandı,**
**50 ildən sonra yar soraqlayır.**

**Ürəyim kövrəlib, gözlərim dolub,**
**Kirpiklər dumduru şehə qarışır.**
**Sən taleyə bax ki, kədərli ömrüm,**
**Vüsalsız eşqiylə harda barışır.**

**Dayanıb qalmışam yol ayrıcında,**
**Yaralı quş kimi uça bilmərəm.**
**İstəyirəm gedim Tovuza sarı,**
**Xatirə əlindən qaça bilmərəm.**

**Buludlar ağlayır, yerlər yas tutur,**
**Bütün nakamların yerinə bu gün.**
**Torpağın da qəlbi kövrəlib necə,**
**Hopur göz yaşlarım dərinə bu gün.**

Ədalət.- 2020.- 22 sentyabr. S. 6.